## VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNƏ, TƏKLİF, ƏRİZƏ VƏ ŞİKAYƏTLƏRİNƏ BAXILMASI, KARGÜZARLIĞIN APARILMASI VƏ XİDMƏTİ SƏNƏDLƏRLƏ İŞİN TƏŞKİLİ

Ümumi şöbə Nazirliyin aparatında kargüzarlıq işini təşkilini, maddi-texniki bazanın yaradılması və təkmilləşdirilməsini, Nazirliyin dəftərxana ləvazimatı, mebel, kompüter və digər avadanlıqlar ilə təchizatını təmin edir. Təchizat işləri üzrə müvafiq idarə, müəssisə və təşkilatlarla bağlanmış müqavilələr üzrə şərtlərin, xidmət və öhdəliklərin icraçı təşkilatlar tərəfindən yerinə yetirilməsinə nəzarət edir, yerinə yetirilmiş işləri və xidmətləri qəbul edir. İnzibati binanın cari və əsaslı təmirini, binanın içməli su, dayanıqlı elektrik enerjisi və telefon rabitəsi ilə fasiləsiz təchiz edilməsini, binanın daxili və binaətrafı sahələrinin vaxtlı-vaxtında təmizlənməsi və müvafiq orqanlarla birlikdə sanitar-epidemioloji tədbirlərin həyata keçirilməsini təşkil edir, təhlükəsizlik və yanğın təhlükəsizliyi texnikasının tələblərinə əməl olunmasına nəzarət edir və digər cari işləri görür.

Əməkdaşların iş şəraitinin yaxşılaşdırılması məqsədi ilə inzibati binanın dördüncü mərtəbəsində akt zalının sıradan çıxmış kondisioneri dəyişdirilərək yenisi ilə əvəz edilmiş, arxiv otağında və daha 2 iş otağında yeni kondisionerlər quraşdırılmışdır. Yenidənqurma işləri aparılaraq Təhsil sənədlərinin tanınması işi üzrə sektor üçün, De-institutlaşma və uşaqların müdafiəsi idarəsi üçün hər birinə 1 iş otağı ayrılmış və təmir edilmişdir. Bundan başqa IV mərtəbədə dəhliz, I mərtəbədə Mühasibat uçotu və hesabat sektorunda 1 iş otağı, Beynəlxalq əlaqələr şöbəsi müdirinin iş və qəbul otaqları, II mərtəbədə sanitar qovşağı təmir edilmiş, giriş qapısında mərmər pilləkən quraşdırılmışdır.

Bütün şöbələrin müasir kompüter avadanlığına, zəruri dəftərxana ləvazimatı, blanklara olan ehtiyacı vaxtlı vaxtında ödənilmişdir. Rabitə xidməti daha da yaxşılaşmış, əlavə şəhər telefon nömrələri açılmışdır.

“Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2007-ci il tarixli, 586 nömrəli Fərmanının tələblərinə müvafiq olaraq, dövlət əmlakın qorunub saxlanılması və səmərəli istifadəsinin təmin edilməsi məqsədi ilə tabelikdə olan təşkilatlarən balansına Nazirliyin balansında olan 1 ədəd avtomobil, 2 ədəd noutbuk, 16 kompyuter dəsti, 5 ədəd printer, 1 ədəd videoproyektor, 2 ədəd surətçıxaran və 6 adda 58 ədəd müxtəlif mebel əşyaları əvəzsiz olaraq verilmişdir.

Əlavə olaraq inzibati binanın təmizliyi, səliqə-sahmanın saxlanması, kommunal xidmətlər, gündəlik cari işlər aparılmışdır.

Vətəndaşların qəbulu otağı cari təmir edilmiş və zəruri avadanlıqlarla təmin olunmuşdur. Müraciət edən vətəndaşlar əməkdaşlar tərəfindən hər gün gün ərzində, şöbə müdirləri tərəfindən hər gün saat 16:00-dan sonra, nazir müavinləri tərəfindən həftədə iki dəfə, nazir tərəfindən həftədə bir dəfə qəbul edilir.

Hesabat dövrü ərzində qəbula gəənlərin sayı cəmi 17 317 nəfər təşkil etmişdir. Onlardan 8 425 nəfəri müxtəlif şöbələrdə qəbul edilmiş, 8 892 nəfərin isə şifahi sorğusu elə qəbul otağında cavablandırılmışdır.

Ümumi şöbədə kargüzarlıq işinə ümumi nəzarət edilmiş, daxil olan ərizə və məktublar haqqında vaxtaşırı hesabat dinlənilmişdir, 2011-ci ildə Nazirlik üzrə 4121 əmr və sərəncam imzalanıb qeydə alınmışdır. O cümlədən əsas fəaliyyət üzrə 2155, şəxsi tərkib üzrə 1402 əmr və 464 sərəncam rəsmiləşdirilmişdir.

Təhsil Nazirliyinə 2011-ci ildə vətəndaşlar tərəfindən 29 095 ərizə və şikayət daxil olmuşdur. Onlardan 646-si nəzarətə alınmaqla baxılmışdır. Hesabat dövründə Nazirlikdən yerlərə 11 570 məktub göndərilmişdir (cədvəllər əlavə edilir).

**Təhsil Nazirliyinə daxil olmuş müraciətlər haqqında məlumat.** Təhsil Nazirliyinin Ümumi şöbəsinə 2011-ci ildə Prezident Administrasiyasından 244, Nazirlər Kabinetindən 927, Milli Məclisdən 48, Dövlət Qulluğu üzrə Komitədən 31, xarici təşkilatlardan 2693, digər təşkilatlardan 20043, ali və orta ixtisas təhsili müəssisələrindən 7018 məktub, 4171 teleqram və fakslar, nazirliyin işçilərinin və tabe təşkilatların rəhbərlərindən isə 551 ərizə daxil olmuşdur.(cədvəl əlavə olunur)

Bundan başqa Təhsil Nazirliyinə 2011-ci ildə vətəndaşlar tərəfindən 29095 ərizə və şikayət daxil olmuşdur ki, bu ərizə və şikayətlərin 646-si nəzarətə alınmaqla baxılmışdır. Təşkilatlardan daxil olmuş ərizə və şikayətlər:

- Prezident Administrasiyasından - 6464
- Nazirlər Kabinetindən - 441
- Milli Məclisdən - 520
- OMBUDSMAN-dan -155 və s. (cədvəl əlavə olunur)

2011-ci ildə Təhsil Nazirliyindən 11570 məktub yerlərə göndərilmişdir. Onlardan:

- Prezident Administrasiyasına, Nazirlər Kabinetinə və Milli Məclisə - 545,
- digər təşkilatlara -11025
- Ərizə və şikayətlərə cavab- 29000

2011-ci ildə Təhsil Nazirliyində 4121 əmr və sərəncam imzalanıb qeydə alınıb. Onlardan:

- Əsas fəaliyyət üzrə - 2155
- Şəxsi tərtib üzrə -1402
- Sərəncam - 464

**2011-ci ildə Təhsil Nazirliyinə daxil olmuş ərizə və şikayətlər barədə**

**M Ə L U M A T**

| | **Ərizə və şikayətlərin sayı** |
|---|---|
| Nazirliyə daxi olub | 29095 |
| Nəzarətdə olub | 646 |
| Onlardan digər təşkilatlardan | |
| Prezident Administrasivası | 6464 |
| Nazirlər Kabineti | 441 |
| Milli Məlis | 520 |
| OMBUDSMAN | 155 |
| Milli Təhlükəsizlik Nazirliyi | 60 |
| Baş prokurorluq | 791 |
| Korrupsiyaya qarşı mübarizə komissiyası | 4 |
| Maliyyə Naziriyi | 96 |
| Ailə qadın uşaq problemləri Komitəsi | 49 |
| Xalq qəzeti | 14 |
| Konstitusiya məhkəməsi | 9 |
| Daxili Işlər Nazirliyi | 52 |
| YAP | 2 |
| Şəffaflıq Azərbaycan təşkilatı | 4 |
| Ədliyyə Nazirliyi | 47 |
| Mədəniyyət Turizm Nazirliyi | 20 |
| Şəffaflıq Azərbaycan təşkilatının Lənkəran ofisi | 6 |
| Gənclər İdman Nazirliyi | 3 |
| Şəffafhq Azərbaycan təşkilatımn Quba ofisi | 4 |

| | |
|---|---|
| Müdafiə Nazirliyi | 8 |
| Səhiyyə Nazirliyi | 1 |
| Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsi | 1 |
| Ali məhkəmə | 14 |
| Hesablama palatası | 2 |
| İqtisadi İnkişaf Nazirliyi | 2 |
| Neft Fondu | 1 |
| Dövlət qulluğu məsələləri üzrə komissiya | 4 |

**Nazirliyin qəbul otağında qeydiyyatdan keçərək nazir müavini, mərkəzi aparatın rəhbəri, şöbə və sektor müdirləri, ayrı-ayrı əməkdaşların qəbulunda olmuş vətəndaşlar haqqında**

**M Ə L U M A T**

| | |
|---|---|
| Qəbulda olmuşlar | 8 425 nəfər |
| Qəbul otağında şifahi sorğulara cavab verilmişdir | 8 892 nəfər |
| Cəmi | 17 317 nəfər |

2011 cu ilin dekabr ayının 21-nə qədər Azərbaycan Respublikası Təhsil Nazirliyində vətəndaşların qəbulu haqqında

M Ə L U M A T

| № | Şöbələr | Qəbulda olmuşdur | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Yanvar | Fevral | Mart | Aprel | May | İyun | İyul | Avqust | Sentyabr | Oktyabr | Noyabr | Dekabr | Yekun |
| 1. | Nazirin köməkçisi | 98 | 121 | 75 | 79 | 82 | 80 | 61 | 88 | 132 | 127 | 72 | 70 | 1085 |
| 2. | Rəhbərlik yanında aparat | 102 | 68 | 95 | 52 | 110 | 121 | 105 | 132 | 141 | 98 | 161 | 182 | 1367 |
| 3. | İctimaiyyətlə əlaqə şöbəsi | 6 | 7 | 12 | 7 | 10 | 1 1 | 5 | 2 | 1 | 8 | 12 | 4 | 85 |
| 4. | Xüsusi şöbə | 15 | 12 | 11 | 16 | 10 | 8 | 13 | 11 | 7 | 6 | 17 | 8 | 134 |
| 5. | Ali və orta ixtisas təhsili şöbəsi | 9 | 11 | 32 | 41 | 21 | 19 | 23 | 29 | 36 | 32 | 28 | 18 | 299 |
| 6. | İqtisadiyyat şöbəsi | 12 | 34 | 45 | 23 | 32 | 31 | 34 | 26 | 28 | 19 | 35 | 25 | 344 |
| 7. | Elm şöbəsi | 7 | 10 | 6 | 9 | 12 | 11 | 8 | 4 | 7 | 6 | 9 | 8 | 97 |
| 8. | Texniki peşə təhsili şöbəsi | 8 | 10 | 6 | 12 | 14 | 12 | 11 | 10 | 8 | 6 | 10 | 12 | 119 |
| 9. | Akkreditasiya | 23 | 18 | 19 | 14 | 6 | 8 | 12 | 10 | 8 | 16 | 12 | 21 | 167 |
| 10. | Kənd rayonları üzrə ümumi təhsil və məktəbəqədər tərbiyə şöbəsi | 22 | 35 | 38 | 41 | 26 | 28 | 30 | 24 | 32 | 28 | 26 | 19 | 349 |
| 11. | Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsi | 12 | 9 | 8 | 7 | 11 | 13 | 9 | 15 | 12 | 7 | 6 | 1 1 | 120 |
| 12. | Beynəlxalq əlaqələr şöbəsi, xaricdə təhsil və əcnəbi tələbərlə iş sektoru | 33 | 79 | 65 | 59 | 62 | 78 | 63 | 45 | 82 | 98 | 112 | 21 | 797 |
| 13. | Umumi şöbə | 6 | 9 | 12 | 23 | 8 | 12 | 14 | 9 | 15 | 12 | 13 | 9 | 142 |
| 14. | Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsi | 78 | 65 | 92 | 66 | 59 | 62 | 214 | 302 | 262 | 210 | 182 | 162 | 1754 |
| 15. | Dərslik və nəşriyyat şöbəsi | 34 | 45 | 33 | 29 | 34 | 25 | 21 | 23 | 32 | 34 | 32 | 39 | 381 |
| 16. | TIMS | 7 | 12 | 19 | 21 | 18 | 16 | 14 | 18 | 12 | 21 | 10 | 9 | 177 |
| 17. | Monitorinq və qiymətləndirmə şöbəsi | 23 | 2*15 | 32 | 19 | 79 | 395 | 21 | 24 | 27 | 28 | 34 | 21 | 918 |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | **495** | **760** | **600** | **518** | **594** | **909** | **689** | **772** | **922** | **756** | **771** | **639** | **8425** |

2011-ci ilin 12 ayı ərzində cəmi 8425 nəfər vətəndaş qəbul edilmiş, onların ərizə və şikayətlərinə baxılmış müvafiq tədbirər görülmüşdür. Bundan əlavə qəbul otağında 8892 nəfərin şifahi sorğularına cavab verilmişdir.